


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 137 (24.024)

23 iyul 2022-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında qarşıya qoyulan vəzifələr müəyyənləşdirilib və yarım ilin yekunları müzakirə edilib



*Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında qarşıya qoyulan vəzifələr və yarım ilin yekunları ilə bağlı iclası keçirilmişdir. İclasda 2022-ci ilin birinci yarısında muxtar respublika məhkəmələrinin fəaliyyətinin yekunları müzakirə olunmuşdur.*

İclası giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev ölkəmizdə insan hüquqlarının təmin olunması və müasir standartlara cavab verən məhkəmə-hüquq islahatlarının aparılmasının ulu öndər Heydər Əliyevin adı ilə bağlı olmasını qeyd edərək məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl islahatlardan danışıb. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun birbaşa rəhbərliyi altında muxtar respublikamızda hüquq institutlarının təkmilləşdirilməsi və ədalət mühakiməsinin keyfiyyətinin daha da artırılması istiqamətində genişmiqyaslı işlər görülüb.

Muxtar respublika məhkəmələri tərəfindən vətəndaşların hüquq və azadlıqlarının təmin olunması sahəsində, habelə əhalinin hüquqi maarifləndirilməsi istiqamətində görülən işlər barədə məlumat verən Ali Məhkəmənin sədri bildirmişdir ki, əvvəlki illərdə olduğu kimi, bu ildə də Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişaf etdirilməsi, məhkəmə orqanlarının fəaliyyətinin müasirləşdirilməsi istiqamətində mühüm addımlar atılmış, eləcə də qanunvericiliyə edilən əlavələr və dəyişikliklər barədə müntəzəm olaraq muxtar respublikada yaşayan əhali arasında hüquqi təbliğat və izahat işlərinin aparılması sahəsində bir sıra tədbirlər həyata keçirilmişdir.

Ali Məhkəmənin sədri muxtar respublikanın ixtisaslaşdırılmış və rayon (şəhər) məhkəmələri tərəfindən baxılıb nəticə verilmiş mülki və digər işlər üzrə çıxarılmış qətnamə və qərardadlardan verilmiş apelyasiya şikayətlərinin nəticələrini və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kassasiya şikayəti verilmiş qərarlarının sabitlik göstəricilərini ətraflı təhlil edib.

Daha sonra Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsinin sədri Hicran Muradovun, Ağır Cinayətlər Məhkəməsinin sədri Hüseyn Məmmədovun, Hərbi Məhkəmənin sədri Polad Həsənovun, Kommersiya Məhkəməsinin sədri Elşən Salmanovun və muxtar respublikanın şəhər və rayon məhkəmələri sədrlərinin 2022-ci ilin birinci yarısında görülən işlərə dair məlumatları dinlənilmişdir.

İclasa Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev yekun vuraraq bildirmişdir ki, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi 16 iyul 2022-ci il tarixdə keçirilmiş altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında Ali Məclisin Sədri tərəfindən qarşıya qoyulmuş vəzifələri Ali Məhkəmənin fəaliyyətində rəhbər tutaraq bundan sonra da ədalət mühakiməsini obyektiv, tam və qərəzsiz şəkildə həyata keçirəcək, vətəndaşların hüquqi maarifləndirilməsi işinin daha da gücləndirilməsi və əhalinin hüquq xidmətlərinə olan tələbatının keyfiyyətli ödənilməsi üçün səylərini davam etdirəcəkdir.

* * *

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyində keçirilən kollegiyada çıxış edən nazir Natəvan Qədimova bildirib ki, 2022-ci ilin ilk 6 ayı ərzində nazirliyin tabeliyində olan musiqi kollektivləri əlamətdar və tarixi günlərlə bağlı konsert proqramları ilə çıxışlar etmiş, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında Milli Teatr Günü münasibətilə mart ayında tədbir keçirilmiş, Xalq yazıçısı Elçinin "Teleskop" əsəri əsasında hazırlanan tamaşa nümayiş olunmuşdur.



Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 27 aprel tarixli Qərarına əsasən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrına "milli" statusu verilmiş və bununla əlaqədar aprel ayında tədbir keçirilmiş, "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri"nin YUNESKO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsi üzrə Reprezentativ Siyahısına daxil edilməsi haqqında sertifikatın təqdimat mərasimi olmuşdur.

May ayının 10-da ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə əlaqədar Heydər Əliyev Muzeyinin qarşısında muzeyin fondunda saxlanılan rəsm əsərləri və xalçalardan ibarət sərgi, iyunun 15-də Heydər Əliyev Muzeyinin qarşısında Naxçıvan Dövlət Filarmoniyasının birləşmiş orkestrinin 15 iyun – Milli Qurtuluş Gününə həsr olunmuş konserti, iyunun 16-da isə Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət Gimnaziyasının müəllim və şagirdlərinin "Şuşa ili"nə həsr olunmuş "Cənnətim Qarabağ" adlı musiqili-ədəbi kompozisiyası təşkil edilmişdir.

Bildirilmişdir ki, yanvar-iyun aylarında mədəniyyət və incəsənət müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində işlər davam etdirilmiş, yanvar ayında Çərçiboğan Kənd Uşaq Musiqi Məktəbinin, may ayında Şərur Rayon Mədəniyyət Sarayının yeni binaları istifadəyə verilmişdir.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər haqqında" 2021-ci il 25 iyun tarixli Sərəncamının icrası ilə bağlı nazirliyin hamiliyinə verilmiş Naxçıvan Dövlət Universitetinin, Naxçıvan Müəllimlər İnstitutunun və Naxçıvan Musiqi Kollecinin müvafiq ixtisaslar üzrə təhsil alan tələbələri üçün açıq dərslər, kitab müzakirələri keçirilmiş, mühazirə və film nümayişi olmuşdur.

Vurğulanmışdır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunması və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı yaradılmış "Əllə toxunmuş xalçaların reyestri sistemi"nə daxil olan 14 xalça haqqında məlumat *naxcivan_muzeyleri* "Instagram" səhifəsində və Naxçıvan Dövlət Xalça Muzeyinin sosial şəbəkə hesablarında paylaşılmışdır.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa ili" elan edilməsi haqqında" 2022-ci il 5 yanvar tarixli Sərəncamının icrası ilə bağlı hesabat dövründə, ümumilikdə, 22 tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Əhməd Cavadın 130 illiyinə həsr olunmuş Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" 2022-ci il 23 aprel tarixli Sərəncamının icrası ilə bağlı Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyində "Əhməd Cavad – 130" başlıqlı sərgi təşkil edilmiş, interaktiv dərs keçilmiş və müzakirələr aparılmışdır.

Bəhs olunan dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq olunmuş "Oxunması zəruri olan kitabların siyahısı"na daxil olan kitabların 119 müzakirəsi keçirilmişdir.

Hesabat dövründə Naxçıvan Dövlət Film Fondu fəaliyyətini daha da gücləndirmiş, nazirliyin saytının fəaliyyəti də diqqətdə saxlanılmış, mütəmadi olaraq məlumatlar yenilənmişdir.

Məruzə ətrafında müzakirələr olmuşdur.



*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində yarım ilin yekunlarına həsr olunmuş kollegiya iclası keçirilib.*

İclası nazir Bəhruz Bayramov açıb. Bildirilib ki, muxtar respublikada uğurla aparılan aqrar siyasət kənd təsərrüfatının dinamik inkişafına səbəb olmuş, infrastrukturun yaxşılaşdırılması ilə əkinçilik sahəsində yüksək nailiyyətlər qazanılıb. Belə ki, qapalı suvarma sistemlərinin tikilərək istifadəyə verilməsi əkinəyararlı torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına və məhsul bolluğunun yaradılmasına imkan yaradıb. Hazırda Babək rayonunun Nehrəm qəsəbəsi ərazisində 250, Çeşməbasar, Güznüt kəndləri ərazisində isə 240 hektar sahədə qapalı suvarma və kollektor drenaj şəbəkəsinin tikintisi aparılır. Bu işlərin davamı olaraq Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərinin 3200 hektar əkin sahələrini suvarma suyu ilə təmin etmək üçün Araz Su Anbarından qidalanan yeni nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisinə başlanılıb.

Qeyd olunub ki, muxtar respublikada ailə təsərrüfatlarının inkişafı, istehsalın genişləndirilməsi, əhalinin məşğulluğunun artırılması, ailə biznesinin qurulması daim diqqətdə saxlanılır. Görülən çoxşaxəli tədbirlər belə təsərrüfatların inkişafına böyük stimul olub, bölgələrdə yeni təsərrüfatların formalaşmasına geniş imkanlar açıb. Hazırda muxtar respublikada 44 mindən çox ailə təsərrüfatı mövcuddur ki, bundan da 1400-dən çoxu ixitsaslaşmış kiçik və böyük ailə təsərrüfatıdır. Verilmiş kreditlərdən səmərəli istifadənin nəticəsidir ki, bu təsərrüfatlarda bütün növlər üzrə məhsul istehsalı və məhsuldarlıq göstəriciləri yüksəkdir.

Diqqətə çatdırılıb ki, kənd təsərrüfatı işlərinin mütəşəkkil keçirilməsində kənd təsərrüfatı texnikaları başlıca şərtlərdəndir."Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 93 ədədi 2022-ci ilin ötən dövründə 3495 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq muxtar respublikaya gətirilib, ondan 2652-si lizinq yolu ilə məhsul istehsalçılarına verilib, 315-i isə nağd və ya köçürmə yolu ilə satılıb. Ümumilikdə, muxtar respublika üzrə 3564 texnika və texnoloji avadanlıq mövcuddur ki, onlardan 413-ü "Naxçıvan Aqrolizinq" ASC-nin mərkəzi rayon və bazalarında, qalanları isə hüquqi və fiziki şəxslərdədir.

Nazir qeyd edib ki, arıçılıq kənd əhalisinin məşğulluğunun təmin olunmasında müstəsna əhəmiyyətə malikdir. 2022-ci ilin birinci rübündə arıçılıqla məşğul olmaq istəyən sahibkarlara güzəştli şərtlərlə 20 min 500 manat həcmində kreditlər verilib. 2000-ci ildə 12 min 620 arı ailəsi olduğu halda, hazırda 106 min arı ailəsi mövcuddur.

Bildirilib ki, heyvandarlıqda aparılan məqsədyönlü tədbirlər və dövlətin dəstəyi öz bəhrəsini verməkdədir. Görülən tədbirlərin nəticəsidir ki, 1 iyul 2022-ci il tarixə 130970 baş iribuynuzlu mal, 832114 baş xırdabuynuzlu heyvan, 1 yanvar 2022-ci il tarixə 1 milyon 396 min 573 baş quş olub ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2095 baş iribuynuzlu malın, 15187 baş xırdabuynuzlu heyvanın, 72665 baş quşun çox olması deməkdir.

Nazir onu da diqqətə çatdırıb ki, hazırda muxtar respublikada heyvandarlıqla məşğul olan 664 sahibkar 10-100 baş arası iribuynuzlu, 524 sahibkar isə 100-5000 başdan çox xırdabuynuzlu heyvan saxlayır. Görülmüş işlərin nəticəsidir ki, 2022-ci ilin ötən dövründə kənd təsərrüfatının ümumi məhsulu 152 milyon 756 min manat təşkil edib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,7 faiz çoxdur.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *



Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətində keçirilən iclasda Dövlət Vergi Xidmətinin rəisi, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Azər Nağıyev çıxış edərək bildirib ki, hesabat dövründə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun büdcəsinə toplanan vəsait 112,5, Naxçıvan Muxtar Respublikasının İşsizlikdən Sığorta Fondunun büdcəsinə toplanan vəsait isə 109,7 faiz icra olunub.

"2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın və "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"ın icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti tərəfindən 2022-ci ilin birinci yarım ilində Tədbirlər planları təsdiq olunub və icrası təmin edilib.

Sahibkarlıq fəaliyyətinə başlamaq üçün prosedurların və vaxt itkisinin dəfələrlə azalmasına gətirib çıxarmış "Bir pəncərə" qeydiyyat sistemi vasitəsilə 10 hüquqi şəxs dövlət qeydiyyatına alınıb. Həmçinin bu dövrdə yerli vergi orqanları tərəfindən 1414 fiziki şəxs sahibkarlıq uçotuna alınıb. Qeydiyyata alınan sahibkarlıq subyektlərinin 80,5 faizi muxtar respublikanın rayonlarının payına düşüb.

Həmçinin bildirilib ki, 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklər barədə vergiödəyicilərinin maarifləndirilməsi və məlumatlandırılması işi davam etdirilib. Görülmüş tədbirlərin nəticəsidir ki, 1 iyul 2022-ci il tarixə vergi borcu olmamışdır. 2022-ci ilin birinci yarım ilində nağdsız ödənişlərin həcminin artırılması məqsədilə, "Nağdsız ödəyin, hədiyyə qazanın!" adlı həvəsləndirici tədbirlər keçirilib, nağdsız hesablaşmalardan istifadə edərək 400 manatdan yuxarı məbləğdə nağdsız ödəniş aparan vətəndaşların həyata keçirdiyi məbləğlərə uyğun olaraq 431 vətəndaşa 25 min manat dəyərində müxtəlif hədiyyələr təqdim edilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# Yarım ilin yekunları müzakirə edilib



Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı çağırış yeddinci sessiyasında qarşıya qoyulan vəzifələrə və yarım ilin yekunlarına həsr olunmuş iclas keçirilib. İclası fondun sədri Rasim Bağırov açaraq bildirib ki, 2022-ci ilin 6 ayı ərzində müvafiq orqan tərəfindən məcburi dövlət sosial sığorta haqlarının toplanması üzrə fondun xəzinə hesabına 64 milyon 817 min 900 manat vəsait daxil olub. Bu isə proqnoz üzrə nəzərdə tutulmuş 57 milyon 636 min manat vəsaitdən 7 milyon 181 min 900 manat və ya 12,5 faiz çoxdur. Pensiya və müavinətlərin ödənişinə ayrılan vəsaitlərin 64,9 faizi məcburi dövlət sosial sığortahaqqı olaraq muxtar respublikada yığılıb. Ümumiyyətlə, 2022-ci ilin 6 ayı ərzində fondun büdcəsinin xərcləri 101 milyon 840 min 960 manat icra olunub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 4 milyon 476 min 43 manat, yaxud 4,5 faiz çoxdur. Hesabat dövründə pensiya və müavinətlərin maliyyələşdirilməsinə 99 milyon 912 min 913 manat vəsait yönəldilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 4 milyon 311 min 590 manat, yaxud 4,5 faiz çoxdur.

Məlumat verilib ki, fond tərəfindən Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarının muxtar respublikada icrası ilə bağlı 40 min əmək pensiyaçısının əmək pensiyalarının sığorta hissəsinin məbləği 3,4 faiz artırılıb, 2022-ci ilin birinci və ikinci rübü üzrə maddi yardımlar ödənilib. Həmçinin qulluq stajına görə əlavələr alan 4247 əmək pensiyaçısının pensiyasının 10 faizi məbləğində hər ay maddi yardımın verilməsi təmin edilib. Bundan əlavə, 2022-ci ilin əvvəlindən minimum pensiyanın məbləği 200 manatdan 240 manata çatdırılıb, bununla əlaqədar olaraq fond tərəfindən muxtar respublikada minimum pensiya alan əmək pensiyaçılarının pensiyasının artırılması, sığortaolunanlara ödənilən birdəfəlik müavinətin artım faizinə uyğun ödənilməsi təmin edilib.

Bildirilib ki, cari ilin birinci yarım ilində fondun yerli qurumları tərəfindən, ümumilikdə, 935 nəfərə əmək pensiyası təyin edilib. Qanunvericiliyə uyğun olaraq 3816 sığortaolunana məcburi dövlət sosial sığorta hesabına müavinət təyin edilib. Deputatların, hərbi qulluqçuların, məhkəmə və hüquq-mühafizə orqanları əməkdaşlarının həyat və sağlamlığının dövlət icbari şəxsi sığortası ilə bağlı hesabat dövründə 1 milyon 171 min manat fondun xüsusi hesabına daxil olub, sığortaolunanlara qanunauyğun qaydada sığorta ödənişləri verilib.

Hesabat dövründə ilk dəfə əmək fəaliyyətinə başlayan və fərdi uçot sistemində uçota alınan sığortaolunanların sayı 1916 nəfər olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 553 nəfər çoxdur. Ümumilikdə, fərdi uçot sistemində uçota alınan sığortaolunanların sayı 184 min 406 nəfərə çatıb.

Bildirilib ki, əvvəlki dövrlərdə pensiya və müavinətlərə artıq ödənilmiş vəsaitin, ümumilikdə, 392 min 161 manatı fondun büdcəsinə bərpa olunub. Bundan əlavə, əmək pensiyaçılarının qeydiyyat ünvanlarının yoxlanılması zamanı aşkar olunmuş nöqsanlar aradan qaldırılıb, nəticədə, fondun 2022-ci il büdcəsində 2 milyondan artıq vəsaitə qənaət olunub.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.



AMEA Naxçıvan Bölməsində yarım ilin yekunlarına həsr olunmuş iclasda çıxış edən AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, bölmə 2022-ci ilin birinci yarısında dövlət fərman, sərəncam və qərarlarından irəli gələn vəzifələri yerinə yetirməyə çalışmış, 9 Dövlət proqramının icrası davam etdirilmişdir. Hesabat dövründə tədqiqatlar 6 elmi istiqamətdə, 6 problemi əhatə edən 7 mövzu üzrə 36 iş 91 mərhələdə yerinə yetirilmişdir. Hesabat dövründə bölmə əməkdaşlarının 360 elmi əsəri çap olunmuş, 1 xəritə və 1 buklet tərtib edilmişdir. Əsərlərdən 2 monoqrafiya, 41 məqalə və 62 konfrans materialı xaricdə çap olunmuşdur.

Diqqətə çatdırılıb ki, ötən il bölmənin fəaliyyəti ilə bağlı keçirilən müşavirədə qarşıya qoyulan vəzifələrin icrası məqsədilə 7 rayonun tarixi, "Naxçıvan tarixinin səhifələrindən", "Naxçıvan arxeologiyası", "Naxçıvan uşaq folkloru" əsərləri çapa təqdim edilmiş, ikicildlik "Naxçıvan etnoqrafiyası" üzərində işlər davam etdirilmiş, "Naxçıvanın dövlətçilik tarixi", "Naxçıvan əlyazmalar xəzinəsi", "Naxçıvan ədəbi mühiti" və "Naxçıvanın xalq deyimləri" kitabları çapa hazırlanmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına əsasən "Elmi əsərlər" jurnalının Xalq rəssamı Kamil Əliyevin 100 illik yubileyinə həsr olunan xüsusi nömrəsi çap olunmuş, Əhməd Cavadın 130 illiyi ilə bağlı növbəti xüsusi nömrə isə çapa hazırlanır. 9 iyul 2021-ci ildə keçirilmiş "Naxçıvan: tarixi, mədəniyyəti, təbii sərvətləri və müasir inkişafı" beynəlxalq konfransının materialları çapa təqdim edilmişdir.

Akademik İsmayıl Hacıyev beynəlxalq əlaqələrin genişləndirilməsi istiqamətində atılan addımlardan bəhs edərək bildirib ki, cari ilin may ayında Türk Tarix Qurumu ilə əməkdaşlığa dair müqavilə imzalanmış, bölmə əməkdaşları müxtəlif ölkələrdə keçirilən beynəlxalq elmi tədbirlərdə iştirak etmişlər.

Bəhs olunan dövrdə "Fəlsəfə və elmlər doktoru dissertasiya mövzuları" kataloqu çapa hazırlanmışdır. Əməkdaşlardan 4 doktorant, 2 dissertant Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən xarici dil imtahanında müvəffəq nəticə göstərmişdir. Hazırda bölmədə 16 elmlər və 23 fəlsəfə doktoru hazırlığı üzrə 39 doktorant və dissertant tədqiqatla məşğuldur. İlin birinci yarısında 3 nəfər elmlər doktoru, 1 nəfər fəlsəfə doktoru dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmiş, 1 nəfər dosent elmi adı almışdır.

Elm və təhsilin inteqrasiyası ilə bağlı görülən işlərdən söz açan akademik Naxçıvan Dövlət Universitetinin AMEA Naxçıvan Bölməsinə hamiliyə verilmiş 10 ixtisası üzrə təhsil alan tələbələri ilə aparılan işlərin mahiyyəti, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi ilə birgə həyata keçirilən "Sabahın tədqiqatçıları-2022" layihəsi çərçivəsində əldə olunan mühüm nəticələrdən bəhs edib.

İclas məruzə ətrafında çıxışlarla davam etmişdir.

* * *



Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzində yarım ilin yekunlarına həsr olunmuş tədbiri mərkəzin sədri İsmayıl Qəribli giriş sözü ilə açıb. Bildirilib ki, 2022-ci ilin 6 ayı ərzində keçirilən 16 test imtahanında 5257 namizəd iştirak edib, 3758 namizəd test imtahanlarında uğur qazanıb. Hesabat dövründə Dövlət İmtahan Mərkəzinin keçirdiyi müsabiqələrdən 248, ehtiyat kadrlar siyahısından 9, inzibati rəhbər vəzifələrin tutulması üçün keçirilmiş müsabiqələrdən 5 nəfər olmaqla, ümumilikdə, 262 nəfər müvafiq vəzifələrə təyin olunub. O da qeyd olunub ki, bu il ölkəmizdə ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının məktəbəqədər təhsil müəssisələrində işə qəbul üçün müsabiqə keçirilib. Birinci yarım il ərzində hazırlıq kurslarının təşkili davam etdirilib, həmin kurslarda, ümumilikdə, 160 nəfər, sınaq imtahanlarında 225 nəfər iştirak edib.

Dövlət İmtahan Mərkəzinin test bazasının yeni suallarla zənginləşdirilməsinin və testlərin ekspertizasının davam etdirilməsi diqqətdə saxlanılıb. Ötən müddət ərzində, ümumilikdə, 20697 sual test bankına işlənib. Həmçinin, ümumilikdə, 4910 sual ekspertiza edilib. Bundan başqa, işə qəbul, bilik və bacarıqların qiymətləndirilməsi və attestasiyaların aparılması üçün, ümumilikdə, 25900 test tapşırığı sifariş verilib.

Qeyd edilib ki, bəhs olunan dövrdə maarifləndirici tədbirlər həyata keçirilib. "Dövlət qurumlarında informasiya təhlükəsizliyi" və "Dövlət qulluqçuları üçün vəzifə təlimatlarının hazırlanması qaydaları" mövzularında seminarlar keçirilib, Dövlət Orqanları İşçilərinin Reyestri Proqramı təqdim olunub.

Eyni zamanda hamiliklə bağlı tədbirlər də diqqətdə saxlanılıb, Dövlət İmtahan Mərkəzinə hamiliyə verilən Naxçıvan Dövlət Universitetinin Dövlət və bələdiyyə idarəetməsi və Dövlət və ictimai münasibətlər ixtisasları tələbələrinin iştirakı ilə müxtəlif mövzularda 6 açıq dərs keçirilib.

Məruzə ətrafında çıxışlar dinlənilib.

* * *



*"Naxçıvan" Universitetində keçirilən iclasda rektor, dosent Nurlana Əliyeva bildirib ki, cari tədris ili üzrə 261 bakalavr tələbə məzun olub ki, bunlardan 4-ü universiteti fərqlənmə diplomu ilə bitirib. Magistratura səviyyəsi üzrə isə universitetdə təhsil alan 26 magistrantdan 10-u məzun olub və 7 magistr tələbəsi isə ali təhsil ocağını fərqlənmə diplomu ilə bitirib.*

Hesabat məruzəsində tədris və təhsillə bağlı bütün məsələlər əhatə olunub, 2021-2022-ci tədris ilinin bakalavriat və magistratura səviyyələri üzrə cari yaz semestrinin yay imtahan sessiyasının yekunları, ali təhsil müəssisəsinin ümumi fəaliyyəti və cari dövrdə tədrisin təşkili barədə iclas iştirakçıları ilə fikir mübadiləsi aparılıb.

Diqqətə çatdırılıb ki, dünyanın 52 universiteti ilə tədris və elmi sahədə əlaqə saxlayan ali təhsil ocağı Erasmus+ proqramı çərçivəsində layihələrin icrasını uğurla davam etdirir. Belə ki, cari tədris ilində EQAC layihəsinin icrası tamamlanıb və layihənin davamlılığının təminatı kimi universitetdə Keyfiyyət Təminatı Mərkəzi yaradılıb. Həmçinin "ECAR- Azərbaycanda Rektorlar Konfransının yaradılması" adlanan növbəti irimiqyaslı layihənin tərəfdaşı kimi çıxış edən "Naxçıvan" Universitetinin əməkdaşları layihə çərçivəsində Bakı şəhərində təşkil olunan bir neçə təlimdə və Stokholm, Varşava və Krakov kimi bir neçə şəhərdə keçirilən görüşlərdə iştirak edib. Bununla yanaşı, "Naxçıvan" Universitetinin beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətində bir sıra fəaliyyətlər də həyata keçirilib. Yola saldığımız tədris ilində ali təhsil ocağında 86 əcnəbi tələbənin təhsil alması, 13 may 2022-ci ildə universitetin Xarici dillər fakültəsində "Alman dili Tədrisi Mərkəzi"nin açılışı, 24 may 2022-ci il tarixdə universitetdə "Türk Dünyası Digital Vətəndaşlığı" layihəsinin məlumatlandırma gününün təşkili, həmçinin "Naxçıvan" Universitetinin Litvanın Mikolos Romerius Universiteti və İspaniyanın Valladolid Universiteti ilə ikili müqavilə imzalaması buna əyani sübutdur. Rektor növbəti ildən də bu istiqamətdə görülən işlərin uğurla davam etdiriləcəyindən əminliyini dilə gətirib.

Məruzədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamından da bəhs edilib. Vurğulanıb ki, həmin Sərəncama əsasən universitetdə 15-ə yaxın ixtisas 10-a yaxın təşkilata hamiliyə verilib. Bildirilib ki, adıçəkilən Sərəncam kadr potensialının inkişafı ilə yanaşı, gənclərin istedadlarının üzə çıxarılması, ideyaların reallaşdırılması və startap təşəbbüslərinin dəstəklənməsi sahəsində mühüm bir addımdır. "Naxçıvan" Universiteti də elmi yeniliklər və innovasiyaların dəstəklənməsi təşəbbüsünə qoşularaq bu sahədə addımlarını atmaqdadır.

Hesabatda gündəlikdə duran məsələlərin müzakirəsi ilə bağlı məruzələr dinlənilib.

* * *



2022-ci ilin birinci yarısında Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsində görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı keçirilən iclasda idarə rəisi Hafiz İsmayılbəyli çıxış edib. Bildirib ki, 2022-ci ilin birinci yarısında Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi qarşıya qoyulmuş tapşırıqların icrasını müvafiq qaydada təsdiq edilmiş iş planına əsasən həyata keçirib. "Naxçıvan Muxtar Respublikasının 2021-ci il büdcəsinin icrası haqqında illik hesabat"a rəy "Hesablama Palatası haqqında" Qanuna, Dövlət büdcəsinin icrası barədə müvafiq qanun layihəsinə və illik hesabata dair Hesablama Palatasının rəyinin hazırlanması, baxılması və təsdiq edilməsi Qaydaları"na uyğun olaraq hazırlanıb və müvafiq qurumlara təqdim edilib.

Qeyd edilib ki, 2022-ci ilin birinci yarısında idarə tərəfindən təsdiq olunmuş iş planına uyğun olaraq Naxçıvan Muxtar Respublikası büdcəsinə kənar dövlət maliyyə-nəzarəti tədbirləri çərçivəsində 6 müəssisə, idarə və təşkilat üzrə tədbirlərin planlaşdırılması, proqramları, işçi planları hazırlanaraq maliyyə və uyğunluq auditləri həyata keçirilib. Eyni zamanda dövr ərzində 5 müəssisə, idarə və təşkilat üzrə analitik tədbirlər aparılıb və nəticələri müvafiq qaydada rəsmiləşdirilib. 2022-ci ilin birinci yarısında keçirilmiş kənar dövlət maliyyə nəzarəti tədbirləri, ümumilikdə, 39 milyon 628 min 383 manat məbləğində vəsaiti əhatə edib ki, bunun da 33 milyon 961 min 645 manatı keçirilmiş auditlərin və 5 milyon 666 min 738 manatı isə aparılmış analitik tədbirlərin payına düşüb. Həmçinin təşkilatlarda mühasibat uçotunun təşkili və aparılması vəziyyətində müəyyən edilmiş uyğunsuzluqların aradan qaldırılması üçün tədbirlər görülüb.

Vurğulanıb ki, idarə tərəfindən 5 təşkilat üzrə aparılan analitik təhlilin dördündə maliyyə hesabatlarının düzgün doldurulmadığı, hesabatlarda əks etdirilən məlumatların mühasibat standartlarında müəyyən edilmiş keyfiyyət xüsusiyyətlərinə tam uyğun olmadığı, hesabatlar üzrə əvvəlki ilin sonu ilə baxılan ilin əvvəlinə olan göstəricilər, eləcə də digər hesabatın aidiyyəti göstəriciləri arasında maliyyə fəaliyyətinin nəticələri və izahlı qeydlərdə fərqlərin mövcud olduğu müəyyən edilib. Audit qruplarının üzvləri tərəfindən təşkilatlarda qanunvericiliklə nəzərdə tutulmuş formada sənədləşmənin aparılmasına və maliyyə-hesabat formalarının tərtib edilməsinə dair maarifləndirmə işləri həyata keçirilib.

Sonra çıxışlar olub.

* * *



*Naxçıvan Muxtar Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyində yarım ilin yekunları ilə bağlı keçirilən iclası agentliyin direktoru Samiq Sadıxov açaraq məruzə ilə çıxış etmişdir.*

Bildirilmişdir ki, 2022-ci ilin ilk 6 ayında icbari tibbi sığortanın tətbiqi zamanı Səhiyyə Nazirliyi ilə qarşılıqlı fəaliyyət göstərilərək 12 rayon, 9 respublika əhəmiyyətli olmaqla, 21 tibb müəssisəsi ilə müqavilə bağlanılmışdır. Yarımillik dövr ərzində tibb müəssisələrinə 209 min 760 müraciət daxil olmuş və lazımi tibbi xidmət göstərilmişdir. Tibb müəssisələrində zəruri olan tibbi xidmətlərin göstərilməsi mümkün olmadığı halda isə sığortaolunanlara 51 min 76 tibbi xidmətə göndəriş vərəqəsi yazılaraq digər tibb müəssisələrində lazımi tibbi xidmətlərin göstərilməsi təmin olunmuşdur. Eyni zamanda tibb müəssisələri tərəfindən qanunvericiliyin tələblərinə uyğun olmayan göndərişlər yazılaraq nöqsanlara yol verilmiş və nəticədə, 407 tibbi xidmətə göndəriş vərəqəsinin icrasının qarşısı agentlik tərəfindən alınmışdır. Həmçinin 341 tibbi xidmətə göndəriş vərəqəsi vətəndaş məsuliyyətsizliyi ucbatından itmişdir.

Diqqətə çatdırılmışdır ki, yanvar-iyun ayları ərzində muxtar respublikada icbari tibbi sığortadan istifadə edən sığortaolunanların müraciəti əsasında 51 min 839 ilkin səhiyyə, 4 min 851 təcili tibbi yardım, 266 min 815 ambulator, 12 min 103 stasionar, 5 min 137 sayda cərrahi, 136 min 660 laboratoriya, 7 min 221 fizioterapiya, 288 invaziv radioloji, 22 min 963 funksional diaqnostik xidmət olmaqla, ümumilikdə, tibb müəssisələri tərəfindən 508 min 377 tibbi xidmət göstərilmişdir.

Məruzə ətrafında çıxışlar dinlənilmişdir.

**Xəbərlər şöbəsi**

## Risk meyarları əsasında avtonəqliyyat vasitələri üzərində gömrük baxışının keçirilməsi üzrə təlimlərə yekun vurulub



Muxtar respublika gömrük orqanlarının əməkdaşları üçün “Risk meyarları əsasında avtonəqliyyat vasitələri üzərində gömrük baxışının keçirilməsi” mövzusunda təşkil olunan təlimlərə yekun vurulub. Naxçıvan gömrük sistemində təkmilləşmə və ixtisaslaşma proqramı çərçivəsində təşkil olunan təlimlər ötən il bu istiqamətdə keçirilmiş təlimlərin keyfiyyətcə ikinci mərhələsi olub. Mərhələli formada üç ay davam edən təlimlərdə Sədərək, Culfa, Şahtaxtı və Naxçıvan Şəhər Gömrük idarələrində yaradılmış müayinə qruplarında yer alan 100 əməkdaş cəlb edilib.

Təlimlərin nəzəri hissəsində əvvəlcədən təsdiq olunmuş proqram əsasında müxtəlif mövzularda tədris aparılıb. Sonra yük, avtobus və minik nəqliyyat vasitələrinin risk meyarları əsasında müayinəsi, texniki nəzarət vasitələrindən də istifadə etməklə nəqliyyat vasitələrində gizlədilmiş şərti predmetlərin axtarışı və qiymətləndirilməsi üzrə praktik məşğələlər keçirilib. Praktik məşğələlər nəqliyyat vasitələrinin müayinəsi üçün müəyyən olunmuş minimal vaxt çərçivələrində aparılıb. Təlimlərin ikinci və üçüncü günlərində tədris olunan mövzular üzrə əməkdaşların bilik və bacarıqlarının real iş prosesində praktik yoxlanılması və qiymətləndirilməsi həyata keçirilib. Real iş prosesində sürücülərin sorğu-sual edilməsi, sənədlərlə eyniləşdirmə, riskin qiymətləndirilməsi, qərar qəbuletmə, eyni zamanda texniki nəzarət vasitələrindən düzgün və səmərəli istifadə ayrıca qiymətləndirilib. Ümumilikdə, praktik məşğələlər zamanı və real iş prosesində müayinələrin nəticələrinə görə yekun qiymətləndirmələr aparılıb.

İyulun 22-də təlimdə yüksək nəticə göstərən əməkdaşlarla keçirilən görüşdə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səhət Həbibbəyli muxtar respublikanın gömrük sistemində ardıcıl olaraq həyata keçirilən təkmilləşmə və ixtisaslaşma proqramının gömrük işinin keyfiyyətinin artırılması, əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsi, qaçaqmalçılığa qarşı qətiyyətli mübarizə aparılması baxımından əhəmiyyətli olduğunu vurğulayıb. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasının tranzit potensialından səmərəli istifadə, ticarətin asan, sürətli və təhlükəsiz şəkildə həyata keçirilməsi üçün gömrük orqanlarının üzərinə mühüm vəzifələr düşür. Bu baxımdan nəqliyyat vasitələri üzərində gömrük baxışı və gömrük yoxlamasının keyfiyyətinin artırılması, riskin düzgün qiymətləndirilməsi üzrə təkmilləşmə tədbirləri bundan sonra da davam etdiriləcək. Son vaxtlar aşkarlanan hüquqpozma hallarının sayında artım olduğunu vurğulayan komitə sədri təlimlərdə qazanılmış bilik və bacarıqların gündəlik iş prosesində tətbiqinin əhəmiyyətini qeyd edib, tövsiyə və tapşırıqlarını verib.

Komitənin Hədəflərin müəyyənləşdirilməsi bölməsinin rəisi, gömrük xidməti polkovnik-leytenantı Rahil Tahirli təlimlərin yekunu ilə bağlı məlumat verərək bildirib ki, təlimlərin nəzəri və praktik məşğələr də daxil olmaqla real iş prosesində keçirilməsi əməkdaşların işə münasibətinin, sürücülərlə ünsiyyət və rəftarının, risk meyarlarının düzgün analizinin real müstəvidə qiymətləndirilməsinə imkan yaradıb. Gələcəkdə müayinə qruplarında xidmət edən bütün əməkdaşların yüksək səviyyəyə çatdırılması üçün təkrar təlimlərin keçirilməsi nəzərdə tutulub.

Sonda təlimdə yüksək nəticə göstərən əməkdaşlara sertifikatlar təqdim edilib.

*Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti*

## Elektriklə işləyən taksilərin təqdimatı olub

Avtobus parkında keçirilən elektriklə işləyən taksilərin təqdimat mərasimində “Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti” publik hüquqi şəxsin direktoru Əli Hüseynəliyev çıxış edib. Bildirib ki, bu gün muxtar respublika rəhbərinin tapşırığı və dəstəyi ilə daha 2 ədəd elektriklə işləyən nəqliyyat vasitəsi taksi xidməti kimi fəaliyyət göstərmək üçün sərnişinlərin istifadəsinə verilir. CHANGAN AUCHAN markalı bu nəqliyyat vasitələri 7 yerlikdir (6+1). Tam yüklü batareya ilə 300-350 kilometr məsafə qət edə bilir. Batareyaların tam dolması üçün ev şəraitində (220 V) 5-7 saat, şarj aparatı ilə 100 dəqiqə kifayət edir. Nəqliyyat vasitəsinin sürət həddi 200 km/saatdır. Avtomaşın kondisioner və qızdırıcı sistemlə təmin olunub.

Qeyd edilib ki, maşının öndən və arxadan görüntü kameraları vardır ki, bu da baş verə biləcək hadisələrin araşdırılmasına köməklik göstərəcək. Həmçinin ABS əyləc sistemi, elektrikli pəncərələr (ön və arxa tərəf), arxa park radar sistemi mövcuddur. Elektriklə işləyən bu maşınlar ekoloji cəhətdən təmiz, yanacaq sərfi baxımından qənaətcildir. Elektriklə işləyən nəqliyyat vasitələrinin şəhərimizdə xəttə buraxılması sərnişindaşıma səviyyəsinin daha da yüksəldilməsinə töhfəsini verəcək.



Diqqətə çatdırılıb ki, istifadəyə verilən yeni taksiləri işlətmək üçün işə götürülən sürücülər diqqətli olmalı, maşınların sazlığına daim nəzarət etməli, texniki qulluğu vaxtında həyata keçirməli, sərnişinlərə daha yüksək səviyyədə xidmət göstərməli, *288* taksi xidməti ilə sıx əlaqədə işləməlidirlər.

Sonra tədbir iştirakçıları istifadəyə verilən yeni taksilərlə əyani tanış olublar.

**✍ Nail ƏSGƏROV**

## Şərur və Ordubad rayonlarında sakinlərə səyyar xidmət göstərilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” Sərəncamının icrasının təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzinin əməkdaşları və Naxçıvan Gənclər Fondunun könüllülərindən ibarət səyyar xidmət qrupu 15-18 iyul tarixlərində Şərur və Ordubad Rayon Təhsil şöbələrinin inzibati binasında bu rayonlarda yaşayan sakinlərə xidmət göstəriblər. Səyyar xidmət zamanı, ümumilikdə, 8 istiqamət üzrə – “Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyətinə, müəllimlərin dövlət ümumtəhsil müəssisələrinə, Naxçıvan Dövlət Universitetinin Musiqi Kollecinə, AMEA Naxçıvan Bölməsinə, dövlət qulluğu üzrə inzibati vəzifələrin 5-7-ci təsnifatına, Səhiyyə Nazirliyinin tabeliyindəki müəssisələrə, Mədəniyyət Nazirliyinin tabeliyindəki müəssisələrə və dövlət musiqi təhsili müəssisələrinə işə qəbul üçün elan olunmuş müsabiqələrdə vətəndaşların iştirakını təmin etmək məqsədilə qeydiyyatdan keçməkdə çətinlik çəkənlərə operativ köməklik göstərilib.

Xidmətin həyata keçirilməsi zamanı könüllülər təlimlər zamanı əldə etdiyi bilikləri tətbiq edərək mərkəzin əməkdaşının müşayiətilə vətəndaşlarla birbaşa ünsiyyətdə olub, onlardan müsabiqədə iştirak etmək üçün lazımi sənədləri qəbul edib və qeydiyyatdan keçirərək müsabiqədə iştiraklarını təsdiq ediblər.

İki gün ərzində, ümumilikdə, Şərur və Ordubad rayonlarında yaşayan 118 namizədə səyyar xidmət göstərilib. Onu da qeyd edək ki, rayonlarda həyata keçirilən səyyar xidmət layihəsinin məqsədi vaxt və maliyyə itkisinin qarşısının alınması, rayonlarda yaşayan, elektron xidmətlərdən istifadə etməkdə çətinlik çəkən, Dövlət İmtahan Mərkəzinin inzibati binasına gələ bilməyən vətəndaşlara səyyar elektron xidmət göstərməkdir. Səyyar xidmətin təşkili vətəndaşların müraciətlərini operativ şəkildə cavablandırmağa, sənədləşmə işlərinin yerində və qısa zamanda həll edilməsinə imkan yaradır.

Həyata keçirilən xidmət sənəd qəbulunda iştirak edən vətəndaşlar tərəfindən razılıqla qarşılanıb.

*Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti*

## Naxçıvan Dövlət Universitetində 22 iyul – Milli Mətbuat Günü qeyd edilib

Azərbaycan milli mətbuatının 147-ci ilində Naxçıvan Dövlət Universitetinin elm və təhsilin inkişafı istiqamətindəki fəaliyyətinin işıqlandırılmasında xüsusi fəallıq göstərən muxtar respublika kütləvi informasiya vasitələri nümayəndələri




təltif olunub. Bu məqsədlə ali təhsil ocağında keçirilən tədbirdə universitetin rektoru Elbrus İsayev ölkəmizdə söz, fikir və mətbuat azadlığının təmin edilməsində ümummilli lider Heydər Əliyevin müstəsna xidmətlərindən danışıb. Qeyd olunub ki, bu gün ölkəmizdə, o cümlədən muxtar respublikada söz və mətbuat azadlığına, kütləvi informasiya vasitələrinə ən yüksək səviyyədə diqqət və qayğı göstərilir. Bu dövlət dəstəyinin jurnalist kadrların yetişməsində oynadığı rol, xüsusilə vurğulanaraq bildirilib ki, universitetin Media Mərkəzində tələbələrin peşəkar jurnalist kimi yetişməsi üçün hər cür şərait vardır. Rektor Universitet televiziyasının muxtar respublikada yayımını universitet mediasına verilən yüksək dövlət qayğısının bəhrəsi olduğunu vurğulayıb. Elbrus İsayev universitetdə təşkil edilən tədbirlərin işıqlandırılması, muxtar respublika və ölkə mediasına çatdırılması istiqamətində mərkəzin fəaliyyətini təqdirəlayiq dəyərləndirib və universitetin elektron təhsil şəbəkəsinin idarə olunmasında Universitet televiziyasının xüsusi əməyi olduğunu diqqətə çəkib. Rektor Ali Məclis Sədrinin müvafiq Sərəncamına əsasən ali təhsil ocağının təşkilatçılığı ilə keçirilən I Beynəlxalq Tibbi Forumun gedişinin muxtar respublika, Azərbaycan, hətta dünya mediasına çatdırılmasında əməyi olan muxtar respublika kütləvi informasiya vasitələri nümayəndələrini təbrik edib, forum çərçivəsində operativlik göstərən media orqanlarına minnətdarlıq ifadə olunub.

Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Şəhla Şirəliyeva “Naxçıvan Muxtar Respublikasında Jurnalistika ixtisası üzrə kadr hazırlığı” adlı çıxışında milli mətbuatımızın zəngin tarixi inkişaf yolundan danışıb. Vurğulanıb ki, muxtar respublikamızda mətbuata göstərilən hərtərəfli qayğının tərkib hissəsi kimi, ali təhsil ocağında da milli və müasir jurnalistika ənənələri formalaşaraq inkişaf edib. Diqqətə çatdırılıb ki, “Yeni fikir” qəzetinin nəşr olunması, Universitet televiziyasının, “Nuhçıxan” radiosunun və “Qeyrət” nəşriyyatının fəaliyyət göstərməsi, Media Mərkəzinin yaradılması muxtar respublikada jurnalistikanın inkişafına dövlət qayğısı olmaqla universitetin elmi, sosial və mədəni həyatı üçün mühüm əhəmiyyət kəsb edir.

Universitetin televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri Səadət Əliyeva ali təhsil ocağının Media Mərkəzinin jurnalist tələbələrin peşəkar kadr kimi formalaşmasında özünəməxsus rolundan danışıb.

AZƏRTAC İnformasiya Agentliyinin Naxçıvan Bürosunun rəhbəri Rauf Əliyev, İctimai TV və radio Yayımları Şirkətinin Naxçıvan Muxtar Respublikası üzrə bölgə müxbiri, Azərbaycan Respublikasının Əməkdar jurnalisti Qahirə Hüseynova, “Nuhçıxan” İnformasiya Agentliyinin baş redaktoru Gülməmməd Əliyev, “Şərq qapısı” qəzetinin müxbiri Güntac Şahməmmədli ulu öndər Heydər Əliyevin milli jurnalistikanın inkişafındakı xüsusi xidmətlərindən, muxtar respublika mediasına göstərilən yüksək dövlət qayğısından danışıblar.

Sonda AZƏRTAC İnformasiya Agentliyinin Naxçıvan Bürosunun rəhbəri Rauf Əliyev, İctimai TV və radio Yayımları Şirkətinin Naxçıvan Muxtar Respublikası üzrə bölgə müxbiri Qahirə Hüseynova, “Şərq qapısı” qəzetinin və Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin bir qrup əməkdaşı, “Nuhçıxan” İnformasiya Agentliyinin redaktoru, Naxçıvan xəbərləri informasiya saytının müxbiri, Əlahiddə Ümumqoşun Ordunun Sənədli və tədris filmləri kinostudiyasının üzvləri, “Yeni fikir” qəzeti redaksiyasının baş redaktoru, universitetin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri, əməkdaşları və könüllü fəaliyyət göstərən tələbələri, “Qeyrət” nəşriyyatının direktoru və əməkdaşları ali təhsil ocağında baş verən yeniliklərin operativ surətdə ictimaiyyətə çatdırılmasındakı səmərəli fəaliyyətinə görə təşəkkürnamə ilə təltif olunub. I Beynəlxalq Tibbi Forumun fəaliyyətinin operativ və dolğun işıqlandırılmasına görə isə media qurumlarının rəhbərlərinə sertifikatlar təqdim edilib.

*Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi*

## Həkim briqadaları müayinələr aparıb



Muxtar respublikada əhali arasında yarana biləcək xəstəliklər və onların yoluxma yolları və profilaktikası istiqamətində mütəmadi olaraq səhiyyə maarifi işləri aparılır. Belə tədbirlərdən biri də Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinin həkim briqadası tərəfindən muxtar respublika ərazisində vərəm xəstəliyinin erkən aşkarlanması və müalicə profilaktikası istiqamətində aparılan tədbirlərdir. Belə ki, dispanserin həkim briqadası Kəngərli rayonunun Qarabağlar kəndində əhali arasında vərəm xəstəliyinin erkən aşkarlanması məqsədilə müayinələr aparıb. Yaradılan həkim briqadasının ftiziatr, həkim rentgenoloq və həkim bakterioloqu tərəfindən Qarabağlar kənd ambulatoriyasında aparılan müayinələrdə kənd sakinlərindən 33-ü həkim ftiziatr tərəfindən yoxlanılmış və flüoroqrafiya müayinəsindən keçmişdir. Müayinələr zamanı şübhəli olan 6 nəfərə mantu sınağı qoyulmuş, vərəmə şübhəli olan 3 nəfərdən bəlğəm nümunəsi götürülmüşdür. Patologiya aşkar olunan xəstələr Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinə PHŞ-yə əlavə müayinə və müalicələrin aparılması üçün dəvət olunmuşdur. Dispanserin həkim briqadası əhali arasında vərəmin erkən aşkarlanması və diaqnostikası istiqamətində maarifləndirici söhbətlər də aparmışdır.

Muxtar respublika əhalisinin sağlamlığının qorunması və təmin edilməsi məqsədilə bu cür tədbirlərin davam etdirilməsi daim diqqətdə saxlanılır.

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti*



# Səmərəli keçən zamanın, maraqlı istirahətin və əyləncəli mühitin ünvanı

*Son illərdə günü-gündən gözəlləşən qədim diyarımızda əhalinin mədəni istirahətinin təmin olunması, vaxtlarının səmərəli keçirilməsi məqsədilə yeni park-xiyabanlar salınır, müasir əyləncə mərkəzləri istifadəyə verilir. Şəhər sakinlərinin, qonaqların, xüsusilə uşaqların sevimli məkanlarından olan "Əyləncə adası" İstirahət Mərkəzi də seçilən, sevilən məkanlar sırasındadır. Ötən günlərdə istirahət etmək, həm də qəzetimiz üçün yazı hazırlamaq məqsədilə adıçəkilən ünvanın yolunu tutduq. Ətrafı gəzinti yolları ilə əhatələnmiş, 2 mərtəbədən ibarət ticarət mərkəzi, hovuz və fəvvarələr, müxtəlif iaşə obyektləri, uşaq və böyüklər üçün çeşidli attraksionların olduğu mərkəzdə müasir infrastruktur yaradılıb.*



Axşam saatlarında mərkəzin ətrafındakı avtomobil sayından bura olan tələbatı təxmin etmək mümkündür. İlk növbədə, buradakı ticarət mərkəzini gəzməyə başladım. İki hissədən ibarət olan birinci mərtəbənin sağ tərəfində uşaqlar üçün nəzərdə tutulmuş müxtəlif attraksionlar var. Onlardan istifadə etmək istəyənlər, ilk növbədə, jetonlar, daha dəqiq desək, kart əldə edirlər. Buradakı maraqlı oyuncaqlar, rəngarəng işıqlar uşaqları özünə çəkir. Quraşdırılan işıqlandırma sistemi, seçilən mahnılar



və uşaqların gülüş səsləri insanın zövqünü oxşayır.

Sol tərəfdə və ticarət mərkəzinin ikinci mərtəbəsində isə bir çox brend mebel və geyim firmalarının mağazaları fəaliyyət göstərir. Axşam saatları olmasına baxmayaraq, açıq olan mağazalarda alıcıların çoxluğu diqqətimizdən yayınmır. Necə deyərlər, axşam həm də burada alış-verişin artdığı vaxtdır.

Binada, həmçinin müasir standartlara cavab verən kafe və restoran fəaliyyət göstərir. Restoranın çöldə hovuzla əhatələnən hissəsi də əhalinin istifadəsindədir. Çöldəki insan sıxlığı kafe və restoranda da müşahidə olunur.

Mərkəzin açıq havada olan hissəsində də geniş imkanlar yaradılıb. Sıx düzülən oturacaqlar, işıqlı piyada gəzinti və velosiped yolları zövqlü istirahətə şərait yaradır.

Yol kənarında iaşə obyektləri də fəaliyyət göstərir. Bu yol "Ləzzət küçəsi" adlanır. Burada müxtəlif restoran, kafe, aksesuar mağazası yerləşir. Bu obyektlərdən biri sosial şəbəkələrdə qarşıma çıxan, Naxçıvanda ilk dəfə fəaliyyətə başlayan bir məkan idi. Oxuduğum rəylərə əsasən belə qənaətə gəlmişdim ki, bura insanların xeyli marağına səbəb olub. Burada həm xoşladığım yeməyi daddım, həm də obyekt sahibi ilə həmsöhbət oldum. Müsahibim qısa söhbətimiz zamanı dedi: "Obyektimiz "Cahan AVM" daxilində 1 aydır ki, fəaliyyət göstərir. Burada kabab, dönərlə yanaşı, yeni yemək və sevilən bir neçə şirniyyat növünün satışına başlamışıq. Son zamanlarda artıq kafe və restoranlarımız dünya mətbəxindən yeni təamları menyularına daxil edirlər. Biz də insanların yeniliyə olan marağını nəzərə alaraq bu məhsulların satışına başladıq. Bizə, adətən, gəzinti zamanı ayaqüstü nələrsə dadmaq istəyənlər müraciət edir".

Burada addımbaşı satış məntəqələri əhalinin ehtiyaclarını ödəyir. Balaca müştərilərin sevimlisi olan qarğıdalı partladılmışı və "pambıq" satan belə satış məntəqələrindən birinin yanından keçərkən yaşlı bir babanın öz nəvəsinə "pambıq" alıb yoluna davam etdiyini gördüm. Babasının əlindən tutub ətrafı maraqla izləyən balaca qızın evə getmək istəmədiyi hiss olunurdu. Gülümsəyərək babasına "Deyəsən, balaca evə getmək istəmir", – deyə yaxınlaşdım. Bu nurani baba da eyni təbəssümlə cavabladı: Yox, qızım... Bütün gün gəzmək istəyir. Elə ki yay fəsli gəldi, əlimizdən yapışıb bizi buraya gətirir. Əslində, bu istirahət məkanı mənim də xoşuma gəlir. Gözəl, səliqəli yerdir. Adam istəyir, hər axşam çıxıb gəzsin... Şükür ki, şəhərimizdə belə səliqəli, təmiz park-xiyabanlar, xidmət mərkəzləri var. 20-30 il bundan əvvəl bu ərazi bomboş səhranı xatırladırdı. İndi isə artıq hərtərəfli müasirliyə qovuşub.

Bu istirahət mərkəzində hər yaş qrupundan insan görə bilərsiniz. Onu da qeyd edim ki, yalnız şəhər sakinlərinin deyil, digər bölgələrdən olan qonaqları da burada görmək mümkündür. Növbəti müsahibim Bakı şəhər sakini Cabbar Əliyev dedi: "Axırıncı dəfə 2008-ci ildə – hərbi xidmət zamanı Naxçıvanda olmuşdum. Düz 14 il sonra yolum bir daha buradan düşdü. Bilirsiniz, bu qədər böyük dəyişikliklə qarşılaşacağıma inanmazdım. Hər şey dəyişib... Naxçıvanın yeri mənim üçün ayrıdır. Qonaqpərvərlikləri, istiqanlılıqları, yeməkləri, küçələri, tarixi abidələri, bir sözlə, hər şeyi çox gözəldir. Burada olduğum müddətdə Naxçıvanın bir sıra əyləncəli, gəzməli yerlərinə səyahət etmişəm. Bu gün də yolumu bu gözəl məkandan – "Əyləncə adası"ndan saldım. İnsan burada vaxtın necə keçdiyinin fərqində olmur. Gözəl mühit, xoş yerlər insanda xoş əhvali-ruhiyyə yaradır. İnşallah, tezliklə yenidən Naxçıvana səfər edəcəyəm".

Öz doğma diyarımızın – Naxçıvanımızın layiq olduğu tərifini həmvətənimizin dilindən eşitmək çox qürurverici hiss idi.

İran İslam Respublikasının vətəndaşı Fatemah Fatohi bizimlə söhbət zamanı dedi: – Bir neçə müddətdir ki, Naxçıvandayam. Bu mənim Naxçıvana artıq üçüncü səfərimdir. Hər səfərimdə daha maraqlı, daha yaddaqalan hadisələrin şahidi oluram. Bu gün də istirahət üçün "Əyləncə adası"nı seçdim. İnsanların çox olduğu bu qaynar məkanı mən çox sevirəm. Ümumiyyətlə, Naxçıvanın hər guşəsi biz qonaqlar üçün dəyərlidir. Hesab edirəm ki, naxçıvanlılar çox xoşbəxt və bəxtəvər insanlardır. Ümid edirəm ki, bu şəhərə bir daha gəlmək fürsətini qazanaram.

"Əyləncə adası"nda həm uşaqlar, həm də böyüklər üçün kifayət qədər istirahət guşələri, xidmət obyektləri var. Cəlbedici oyun, eyni zamanda xidmətin keyfiyyəti, hər kəsi qane edir. Top hovuzu, Paris aparatı, dövr edən balaca qatar uşaqların ən çox sevdiyi attraksionlardır.



Buradakı gəzinti sahəsinə çıxarkən mərkəzə yerləşdirilmiş səhnə nəzərə çarpır. Burada yay mövsümündə müxtəlif konsert proqramları təşkil edilir. Həmin günlərdə, xüsusilə insan sıxlığı daha çox müşahidə olunur. Digər günlərdə isə səhnədə müxtəlif mahnılar səsləndirilir. Bununla yanaşı, həmin guşədə milli kinofilmlərimizin yayımlanması da milli dəyərlərimizin təbliği baxımından təqdirəlayiqdir.

Sahil Parkı da mərkəzin maraqlı hissələrindəndir. Burada müxtəlif idman qurğuları, 2 şəlalə, Naxçıvançay yatağında yaradılmış göl mövcuddur. Qeyd etmək lazımdır ki, Naxçıvançayın sərin küləyi bütün park boyunca hiss olunur. Burada bir neçə yerdə velosipedlər icarəyə verilir ki, həm kiçiklər, həm də böyüklər park ətrafında velosipedlər üçün ayrılmış yoldan rahatlıqla istifadə edirlər. Həmçinin burada müxtəlif heyvanların saxlanıldığı "Mini zoo" adlanan kiçik zoopark var ki, heyvansevər balacalarımızın buraya da marağının şahidi olduq.

*Bir sözlə, "Əyləncə adası" İstirahət Mərkəzində yaradılmış şərait böyüklərin də, kiçiklərin də tələbatını ödəyir. Siz də istirahət günlərinizin maraqlı və əyləncəli keçməsini istəyirsinizsə, buraya üz tutmağı unutmayın.*

**Aysel YUSİFZADƏ**
***Naxçıvan Dövlət Universitetinin***
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

## Elan



Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyi gənclər arasında "Könlüm Naxçıvan" mövzusunda yaradıcılıq müsabiqəsi elan edir.

***Müsabiqə aşağıdakı istiqamətlər üzrə keçirilir:***

- *qəzet məqaləsi;*
- *teleradio materialları;*
- *rəsm əsəri.*

***Müsabiqənin keçirilməsində məqsəd:***

Müsabiqənin keçirilməsində məqsəd muxtar respublikanın son 10 ildəki inkişaf tarixinə nəzər salmaq, bu sahədəki yaradıcılıq fəaliyyətinə dəstək vermək, iştirakçıların bacarıqlarını və ideyalarını üzə çıxarmaq, Naxçıvanın inkişafını müxtəlif materiallarla göstərməkdir. Həmçinin ölkəmizdə uğurla davam etdirilən Heydər Əliyev siyasi kursunun muxtar respublikamızda həyata keçirilməsini müxtəlif yaradıcılıq materialları ilə təqdim etməkdən ibarətdir.

***Müsabiqədə iştirak:***

Yaradıcılıq qabiliyyəti olan 16-35 yaş arası hər kəs müsabiqədə iştirak edə bilər. Lakin bu zaman iştirakçı yalnız bir istiqamət seçməlidir. Müsabiqəyə təqdim olunan materialların qiymətləndirmə meyarları:

- *işlərin bədii səviyyəsi və peşəkarlıq keyfiyyəti;*
- *müsabiqənin şərtlərinə cavab verməsi və istiqamətlərdən birini əhatə etməsi;*
- *ideyanın orijinallığı;*
- *işin təsiredici qüvvəyə malik olması və mövzunun asan qavranılması;*
- *yaradıcı yanaşma və mövzunun açılması.*

Müsabiqəyə təqdim olunan materiallar aşağıdakı tələblərə cavab verməlidir:

***Teleradio və qəzet məqaləsi:***

Müsabiqəyə təqdim olunan məqalələr müəllifin istəyinə uyğun olaraq "Şərq qapısı" və ya şəhər və rayon qəzetlərində dərc edilməli, teleradio materialları Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən televiziya və radiolarda efirə yayımlanmalı, bu zaman "Könlüm Naxçıvan" yaradıcılıq müsabiqəsinə təqdim olunmaq üçündür" qeydi göstərilməlidir.

***Rəsm əsəri:***

Müsabiqəyə təqdim olunan rəsm əsərləri rəngkarlığın və qrafikanın müxtəlif texnikalarından istifadə olunmaqla (sulu boya, yağlı boya, quaş, qara qələm, qarışıq texnika və sair) istənilən material üzərində işlənə bilər. Siyasi rəhbərlərin portretləri əsərlərdə əks oluna bilməz. Müsabiqəyə təqdim olunan rəsm əsərləri minimum 50x60 santimetr ölçüdə olmalıdır.

***Müsabiqənin keçirilmə vaxtı:***

Müsabiqə 2022-ci il iyul ayının 23-dən sentyabr ayının 30-dək keçiriləcəkdir. Yaradıcılıq müsabiqəsində iştirak etmək istəyənlər hazırladıqları işləri 2022-ci il sentyabr ayının 30-dək şəxsiyyət vəsiqələrinin surəti ilə birlikdə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyinə *(Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1A. Telefon: 036-550-50-75)* təqdim etməlidirlər.

Qaliblər 2022-ci ilin oktyabr ayında elan olunacaq və mükafatlandırılacaqlar.

Müsabiqənin mükafat fondu aşağıdakı kimidir:

*Birinci yer (1 nəfər) – 500 manat*
*İkinci yer (2 nəfər) – 300 manat*
*Üçüncü yer (3 nəfər) – 200 manat*
*Həvəsləndirici yer (4 nəfər) – qiymətli hədiyyələr.*

## Boks üzrə seminar keçirilib



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə muxtar respublikanın idman federasiyalarının birgə təşkil etdiyi məşqçilər və idmançılar üçün seminarlar davam etdirilir. Ötən gün Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində boks üzrə təşkil edilən növbəti seminar da bu qəbildəndir.

Seminarın açılış mərasimində çıxış edən Gənclər və İdman Nazirliyinin şöbə müdiri Taleh İbrahimov, Boks Federasiyasının sədr müavini Məmmədcəfər Əliyev, kişilərdən ibarət Azərbaycan milli komandasının böyük məşqçisi Nəriman Abdullayev bildiriblər ki, son illərdə ölkəmizdə boksun inkişafına göstərilən diqqət öz bəhrəsini verməkdə, gənc nəslin bu idman növünə marağı artmaqda, keçirilən yarışlarda uğurlu nəticələr əldə edilməkdədir. Bu gün Naxçıvanda da yüksək səviyyəli yarışların və turnirlərin keçirilməsi, boksun maddi-texniki bazasının gücləndirilməsi, boksçularımızın dünya arenalarında uğur qazanması bu idman növünün muxtar respublikada inkişafından xəbər verir.

Çıxışların ardınca seminara start verilib.

Azərbaycan milli komandasının böyük məşqçisi Nəriman Abdullayev, yeniyetmələr və gənclər arasında üçqat Avropa çempionu Ruslan Rüstəmov, yeniyetmələr və gənclər arasında dünya və Avropa çempionu, olimpiya mükafatçısı Məhəmməd Abdullayev, yeniyetmələr və gənclər arasında Avropa çempionatının mükafatçısı Türkeş Mustafayev, yeniyetmə, gənclər və böyüklər arasında Avropa və dünya çempionatlarının, Avropa və İslam Oyunlarının mükafatçısı, milli komandanın kapitanı Tayfur Əliyevin iştirakı ilə keçirilən seminarda Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarının 100-ə yaxın dərialcək sahibi iştirak edib.

Qeyd edək ki, keçirilən taktiki-texniki seminarın məqsədi məşqçi-müəllimlərin, idmançıların yeniliklər, yeni qaydalar haqqında məlumat almasına, ümumilikdə isə boks idman növünün inkişaf etdirilməsinə bilavasitə təkan verir.

**✍ Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Hüseynova Çimnaz Musa qızının adına olan 0201226012 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

***

Əliquliyev Abdin Hüseyn oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.***
***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Səbuhi Həsənov**
*Qəzet redaksiyanın kompüter ində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1500. Sifariş № 654**